# *Sənin hörmətini göyə qaldırdım, Titrəyən əlimdən yerə düşəcək...*



## Ağacəfər Həsənli

### Qayıtmadı geri

Arxanca bir yol göndərdim,
Yol qayıtmadı geri.
Sənə səmt uzanıb qalmış
Qol qayıtmadı geri.

Çönüb töhmət vurdu mənə,
Kəlməbaşı qarğış, tənə...
Ürəyimə düşdü yenə
Xal, qayıtmadı geri.

Ovqatımın təlx çağında,
Əhvalımın tərs çağında.
Bədöy atın ayağında
Nal qayıtmadı geri.

Hər gedər-gəlməz yol türmə,
Bel bağlama, yiyə durma.
İncə belindəki tirmə
Şal, qayıtmadı geri.

Otu-ələfi çürümüş,
Bu qurğusu, nə qurğuymuş?
Gör, dili-ağzı qurumuş
Lal, qayıtmadı geri?

### Sükutun oyun havası

Xəyal kimi keçir sükut,
Səhramda ilğım bulağı
Çal-çağırı biçir sükut,
Dəng olur vaxtın qulağı...

Dərs götürür dünənimdən,
Şeytan üzümə irişir,
Zamanın toy-düyünündən
Sükutun qoltuğu şişir.

Bənd olma, ağrayır canım,
Oynamağa halmı qalıb?
Yedirtmə acı loxmanı,
Ağzımızda halva qalıb.

### Qazanc

*Söz duyumuna və özünəməxsus düşüncə tərzinə malik İldırımzadə Yusifə*

Yağan yağışla qohumdu,
Gözümdə yaş damcı-damcı.
İçimdə qara-qorxumdu,
Fələkdən vurulan qamçı.

Vücudum sitəmdi, qandı,
Nə yurd tapdı, nə mülk qandı.
Oyatma, yatan vulkandı,
Bətnimdə uyuyan sancı.

Can özgə cür sələmədi.
Cavan zoğdu, qələmədi.
Söz bəxtəvər eləmədi -
Nisyə şöhrətdir qazancı.

### Həyat üzünə güldü

Həyat ki üzünə güldü,
Qəşş elədi,
Görəcəksən otun rəngi başqadı,
Ağacınkı bambaşqa,
Yarpağınkı tam başqa.
Çiçəyinki özgə cür,
Kədərinki cürbəcür.

Meyvənin dadı əsl daddı,
Adamın ağzının suyu axır.
Mamırlı ağacın koğuşu-
Qədim yaşayış məskəni.
Heyrət doğurur sadə arı güzəranı,
Yurd yiyəsi - əsilzadə ağac.

Həyat ki üzünə güldü,
Görəcəksən təkcə romantikadan,
Roman oxumaqdan ibarət deyil.
Eyş-işrət, imarət deyil.
Azca ömür ağacından dərd dərməkdi,
Dərdi əzizləməkdi,
Yerini şirin salmaq üçün əvəzləməkdi.

Həyat ki üzünə ağladı,
Qadının bal ağzı açılır,
Çullu dovşan sığışmır,
Yas yasa ara vermir,
Basbabas ara vermir -
Hamısı da eyni cür.

### Qapıdan peşiman qayıtmır

Ölümün ağzından qurtulan insan-
ilanın ağzından qaçan sərçədi.
Bəsdi bir qasırğa, kiçik bir leysan,
görərsən, cibini ağac xərclədi.

Nə qaldı bar-bəhrə budaq üstündə,
dili topuq çalır dəlisov yelin.
Ay hər gün əyilir Mütləq önündə,
vallah, darı dəlir qulağı yerin.

Əzrayıl qaz vurub, qazan doldurur,
canım, nə ömür-gün, havayı şeydi.
Qurani-Şərifdə göstərilən sur,
mələk İsrafilin çaldığı neydi...

Qara qan çilənir qətran gecədən,
ümid sabahımın hər vaxt alnı büz.
Çəmənin ətrinə bürünürəm mən,
qar yağır üstümə gecəbagündüz....

Comərd papağıdır, sultan tacıdır,
gizlənən ölümün bilinmir yeri.
Hər vaxt üzü ağdır, alnı açıqdır,
qapıdan peşiman qayıtmır geri.

### Qaş düzəltmək əvəzinə

Qalxıb üsyana, tətilə,
Ürəyim minbir yerindən.
Nə əkdin ki, becərmədin -
Ürəyin münbit yerində?

Ölmədim, bu günü gördüm,
Özümdən qisas alıram.
Son dəfə üzünü gördüm,
Yenə tək, yalqız qalıram.

Ürək poçt qutusu deyil,
Arabir məktub göndərim.
Qonaq-qara "bəh-bəh" desin,
Karvansaraya döndərim.

Ara sözü evyıxandı,
Özümü sığortaladım.
Dedim kefini pozacaq,
Sözümü sığortaladım.

Təmkin-tükənməz xəzinə,
Səbrlə üstündə yatdın.
Qaş düzəltmək əvəzinə,
Vurub gözü də çıxartdın.

### Qeydiyyat

Gor ağzına çatmamış,
naməlum zəng gəldi evinə.
Arvadı telefonun dəstəyini
qaldırdı sevinə-sevinə...

"Bakı - altımış üçdən
mənzil qeydiyyatından çıxmış
filankəs filankəsli
məzar qeydiyyatına düşdü".

### Sənin hörmətini göyə qaldırdım

Gözün bu ağılnan kimə oxşayıb,
Açılan güləmi, baxan ayamı?
Deyir, dəbə minmək axı bir ayıb,
Ondan bir gün düşmək məgər röyamı?

Gəl çatdır özünü sən addım-addım,
Dörd yol ayrıcında dayanmışam mən.
Sənin hörmətini göyə qaldırdım,
Titrəyən əlimdən yerə düşəcək...

Bu ümidsiz eşqin mənəm təhkimi,
Aramsız ağrıyla tutma dövrəmi.
Ağac gövdəsindən əyilən kimi,
Həsrətin axır ki, əydi gövdəmi.

Səbrim çiy süd əmib, çıxacaq təbdən,
Ayılıb görərsən nəsə itirdin.
Mən Zəmzəm suyundan içdim Kəbədə
Dörd yol ayrıcında unutdun məni.
Sən susuz aparıb, susuz gətirdin.

Eşqi gerçək olmur nağıl dilinin,
Vədinin dalından yaman dəyirsən.
Yalanı şirindir yağlı dilinin,
Sən çaşıb qatığa qara deyirsən.

### Bir ovqat

Quzu mələrtisi, at kişnərtisi,
Çəkdi səhər erkən yuxumu ərşə.
Şehin oyanışı, mehin nəfəsi,
Qaldırdı torpaqdan qoxunu ərşə.

Ağaclar atdılar göyə papağın,
Yenə yaraqlanıb-yasaqlandılar.
Xəzələ çevrilmiş qoca yarpağın
Halına acıyıb yarpaqlandılar...

Min ildir saralan təpə usanmır,
Biçilmiş arpanın tayası kimi.
Hələm-hələm dağda əsəb oyanmır,
Sakitəm - Qələbin qayası kimi.

Çözülür gözümdə qara da, ağ da,
Yamacın yanağı nə yaman pörtüb?
Kövşən qarnı üstdə yatıb torpaqda.
yəqin kürəyini çəmənzar örtüb.

Gedir çarvadarlar qarışıq yolla,
Xəbərçi cuğullar töhmət qazanır.
Sijimdi, kəmərdi, qayışdı yollar,
Rezintək nə qədər dartsan - uzanır.

Pusqular qurulub sıldırım dikdə,
Zirvədən dizimin gücünə düşdüm.
Ovqatım sürüşdü məxmər gədikdə,
Yarımçıq yuxumun içinə düşdüm.

### Həyat dərsi

Göz yaşım həmişə ovcuma hopur,
Vermir bəhrəsini qarda, tufanda.
Nəhayət, dünyada qiyamət qopur,
Adamın gözünü çörək tutanda.

Hər zaman tər tökür qazi əllərim,
Ömrünə-gününə dirək tapmaqdan.
Günəmuzd işləyən yazıq əllərim,
Qabar-qabar olub çörək tapmaqdan.

Payız gözlərimin nəmidi dünya,
Artan çirkablara bulaşmadım ki...
Başını itirmiş gəmidi dünya,
Durub gəmiçiylə dalaşmadım ki!

Ağlım töhmət vurdu məzmunsuz günə,
Utanıb üzümü sıxdım balınca.
Mən elm dalınca getmək yerinə,
Qaçıb Çinə getdim çörək dalınca.

Bəsdi ehtiyacın minnəti mənə,
Öz əlim, öz başım -kifayətimdir.
Soyuq vağzallarda döyəndə çənə,
Yabançı çörəyi yemək çətindir.

Mənim səxavətli, payçı əllərim,
Oxudu üzümə həyat dərsini.
Çörəyə çatanda qayçı əllərim
Yaddan çıxartdılar köhnə dərzini.

### Adəm oğlu eşitmir

Qəzəb məni boğmaqdansa,
Mən qəzəbimi boğuram.
Nə təknəm var, nə xəlbirim -
Özümə xəmir yoğuram...

Yumşaq üzümə dost ağdır,
Hər astagəlmiş ustadır.
Gücüm canımda dustaqdır,
Qazanılmamış uğuram.

Qədim Tyan-Şan qarıyam,
Gərək qurd salam, qarıyam....
Ölməz Mahmud Kaşqariyəm -
Qaraqalpakam, uyğuram.

Adəmi oğlu səs eşitmir,
Qulağı kar bəs eşitmir?
Dustağı qəfəs eşitmir-
Kimin üstünə çığıram?

Ver mənə sözümdən nişan,
Dərd çəkməkdən ürək şan-şan.
Xirtdəyiməcən dolmuşam,
Yenə özümə sığıram.

## Dəqiqədən geri

Ürəyim çıxdı bayıra,
Gecəboyu üşüdü.
Küçəboyu yeridi,
Gördü onun sürəti
Dəqiqədən geridi.
Sirsifəti, surəti
Şeirimin biridi.
Baxışını gizlətdi,
Yavaş-yavaş kiridi.
Gördü ölməyə vaxt var -
Ancaq elə dirıdi,
Bir sümük, bir dəridi.

## Tanrı sapa düzüb

Tanrı sapa düzüb sıra dağları,
Belindəki cığır göy qurşağıdı.
Hər qaya-daş oğlan tüfəng yağlayır,
Hər ağac döyüşkən kənd uşağıdı.

Az qala yolüstü düşüm xətaya,
Yamac dığırladı qarşıma kəsək.
Tövsüyə-tövsüyə tullandım çaya,
Sudan quru çıxdım həmşəkitək.

Necə səadətmiş dumanı ötmək...
Ağac gövdəsində adımı gördüm.
Ruzuya getməkdi, quzuya getmək -
Bu yaşda boynumun ardını gördüm.

Hörümçək torunu sim-sim toxuyur,
Xallı kəpənəyin qulağı səsdə.
Nisliдə arılar "Yasin" oxuyur,
Ölən arıların beşiyi üstə.

Uca göy tağında - bulud keşikdə,
Şimşəyi yarğana uçanda gördüm.
Dağın zirvəsinə çıxdım Lerikdə
Dünyanı ovcumun içində gördüm.

## Qaş qaralan kimi

Məni haldan saldı unutqanlığın,
Mərdi qova-qova namərd eylədin.
Bu örkən yollarda dərd yığın-yığın
Gözümün yaşını nəmər eylədin...

Hansı küpəgirən qatdı aranı,
Qızara-qızara yarımcan oldun?
Hansı qasırğaydı kəsdi aranı -
Mən sonda ağladım, sən sonda güldün

Neyləyim, dönürəm günə, aya mən
Sinnimin ərköyün çağına çatıb.
Bir vaxt "qızıl" idi sənin ayaman
Köhnə xasiyyətin daha pas atıb.

Bu nəydi arxamca atdığın ələk,
Təki ayaqlama imanı, dini.
Get öz bildiyini sən beş qaba çək,
Faş etmə ömrümün gizlinlərini.

Kəsdiyim çörəkdir tutub gözümü,
Kəşfiyyat aparma, uzaqda təksən.
Hərdən aldadıram özüm-özümü -
Qaş qaralan kimi görünəcəksən.